# Redaksiyadan

**Xalq şairi, xalqımızın sevimlisi Nəriman Həsənzadənin Ümummilli liderimiz Heydər Əliyevin əziz xatirəsinə həsr etdiyi - "Mənim ədəbi taleyim-Zamanla, tarixlə görüş" adlı kitabını bu sayımızdan başlayaraq qəzetimizdə çap edirik. Bu kitab təkcə ulu öndər Heydər Əliyenin yox, həm də böyük dövlət xadimi, Azərbaycan üçün çox işlər görmüş Nəriman Nərimanovun və elə Xalq şairi Nəriman Həsənzadənin özünün də həyatına həsr olunub. Ümumiyyətlə, yaxşı, xeyirxah insanların bir zamanlar Nəriman Həsənzadəyə və Azərbaycan ədəbiyyatına elədyi köməkliklər bu kitabda özünün gözəl əksini tapıb.**

**Əziz oxucular inanırıq ki, bu yazılar sizin xoşunuza gələcək və Nəriman Nərimanova çamur, çirkab atan adanlara da bir görk və layiqli cavab olacaq.**

# Mənim ədəbi taleyim - zamanla, tarixlə görüş

## *(Ümummilli lider Heydər Əliyevin əziz xatirəsinə)*

***(Əvvəli ötən saylarımızda)***

Lənkərana ilk məhsul bayramına gedəndə, o yenə yaradıcı ziyalılara hörmətlə yanaşır, yolboyu zarafatlaşırdı. Oxuduğu əsərlərdən misallar çəkirdi. İndi onların hamısı şirin xatirələrə dönüb.

Lənkəranda yaşayan bir əsgərlik dostum gəlib məni aparmışdı ki, ailəsilə tanış etsin. Xəbərsiz getmişdim. Söhbətimiz şirin olduğu üçün vaxt uzanmışdı. Saat 12-dən keçmiş, dörd milis maşını qapıda dayandı.

Dolu bir milis serjantı çox həyəcanlıydı.

Heydər Əliyev yoldaş sizi axtarır. Süfrələr açılıb, siz yoxsunuz.

Məsələnin nə yerdə olduğu aydın idi. Təcili maşınların birinə oturub özümü məclisə çatdırdım.

Üzr istədim, səmimiyyətlə mənə süfrə arxasında yer göstərdi.

Sonra danışırdılar ki, məclisə göz gəzdirib səni görməyəndə, Lənkəranın birinci katibi İsa Məmmədovdan soruşub. O da cavabsız qalanda, təcili tapın, - deyə göstəriş vermişdi.

Bütün məclis əhli bu əhvalatdan xəbərdar oldu. Özüylə şəhərdən apardığı qonaqların yerbəyer olduğunu biləndən sonra, o, süfrəyə əl uzatdı.

Mən Heydər Əliyevin bu cür həssaslığının, narahatlığının bir dəfə şahidi olmuşam.

Əyləncə Mərkəzində həmyerlimiz Rastrapoviçin şərəfinə ziyafətdə, bəstəkara söz verdiyi yerdə mikrofon kəsildi. Danışırdı, amma eşidilmirdi.

Əsəbləşdi...

Bəlkə də bu, bizim üçün adi bir şey idi. Amma onun nəzərində xırda bir şey yox idi.

Mən hardasa oxumuşdum ki, dövlət başçısının nəzərində kiçik bir hadisə yoxdu və olmamalıdı. Onlar zahirən xırda görünən hadisələrə böyük məna verirlər və verməlidirlər.

Heydər Əliyev də məhz belə dövlət başçısı idi.

O, millətinin və mürəkkəb epoxasının böyük oğluydu, həmişə də böyük olaraq qalacaq.

***

Səhhətilə bağlı xalqına tarixi müraciətində öz yerinə oğlu İlham Əliyevi təklif eləyəndə də haqlıydı. Ulu öndərin bu çağırışı ümumxalq razılığı ilə qarşılandı.

Cənab Prezident İlham Əliyev atasının uzunmüddətli proqram-layihələrini ləyaqətlə yerinə yetirir. Müstəqil Respublikamızın bu günü, sabahı naminə əlindən gələni əsirgəmir və bunu dünyanın qabaqcıl ölkələri də etiraf edirlər.

Hələ 1999-cu ildə siyasi elmlər üzrə fəlsəfə doktoru Vaqif Abdullayevin "O, böyük siyasətə hazırdır" kitabının Gürcüstanda yaşayan azərbaycanlıların Tiflisdəki Mədəniyyət Mərkəzində keçirilən təqdimatına mən də dəvət olunmuşdum. Paytaxtın tanınmış ziyalıları, yazıçılar, tarixçilər, institut tələbə və müəllimləri yüksək elmi biliyə, zəngin dünyagörüşə, dövlətçilik təfəkkürünə malik olduğunu, Heydər Əliyevin yanında tərbiyə aldığını, beləliklər də böyük siyasətə hazır olduğunu xüsusi vurğulayırdılar.

Mən öz çıxışımda kitabın geniş tədqiqat əsəri olduğunu dedim. Və İlham Əliyevin - "...xarici iş adamları müqavilə bağladıqları zaman bəlkə də səhvə yol verə bilərlər, amma buna bizim haqqımız yoxdur" sözlərini deyəndə, salonda alqışladılar.

Bir neçə gündən sonra gürcülər "O, böyük siyasətə hazırdır" kitabını öz dillərinə çevirdilər.

Naxçıvan MR şəhər ziyalılarının geniş müzakirəsində də kitabın müəllifi ilə mən bir yerdə iştirak edirdik.

Cənab Prezident İlham Əliyevin rəhbərliyi dövründə onun işıqlı zəkası və tükənməz dövlətçilik enerjisi sayəsində ölkəmizdəki sabitlik və yaradıcılıq əhval-ruhiyyəsi xalqın rifahına xidmət edir.

Respublika Prezidentinin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli sərəncamına əsasən çap olunan, ölkə kitabxanalarına və orta məktəblərinə hədiyyə edilən nəşrlər arasında mənim də "Seçilmiş əsərlərim" var idi.

***

Bir yaradıcı insan kimi mənə olduqca xoş idi ki, Naxçıvan Muxtar Respublikasının 80 illik yubileyində "Teatrın pasportu" fəxri adını qazanmış "Atabəylər" mənzum pyesimə Cənab Prezident Mehriban xanımla birgə maraqla tamaşa etmişdilər.

Ədəbiyyat və incəsənət sahəsində Heydər Əliyev ənənələrini yaradıcılıqla inkişaf etdirən və yazıçıları heç vaxt unutmayan ölkə başçısı mənim 80 illik yubileyimin keçirilməsi haqda sərəncam vermişdi.

Bütün bunları böyük razılıq hissləri ilə xatırlayıram və bügünkü ədəbi hərəkatda fəal iştirakım üçün çox şadam.

***

İndi mədəniyyət mərkəzlərindən biri kimi Azərbaycan beynəlxalq müsabiqələri, fesyivalları, ictimai tədbirləri keçirmək üçün dünyanın ən münasib ölkəsinə çevrilmişdir.

Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın mənəvi dəyərlərimizi dirçəltməsi, muğam-saz sənətimizə dünya miqyasında Beynəlxalq status alması müstəqillik illərinin ölçüyəgəlməz töhfələrindəndi.

Mehriban xanıma həsr etdiyim "Sözü tara verin..." adlı poemam bu misralarla bitir:

...Bakıda Beynəlxalq Muğam Mərkəzi,
birinci, Müşfiqə xəbər eləyin.
Onun qapısını ləl-cəvahirat,
onun pillləsini gövhər eləyin.

Şuşanı alınca şəhər seçmişəm,
seçəndə, bənzərə bənzər seçmişəm.
Gəncənin yerində mən yer seçmişəm,
onu Muğam adlı şəhər eləyin.

İndi Azərbaycan oxu, tar! - deyir,
tarda oxumayan oxu, tar! - deyir,
Oxu, tar, Mehriban "Oxu, tar!" - deyir,
Oxuyun, axşamı səhər eləyin.

Muğamdan doğuldu o Muğam qızı,
xoşbəxtlik gətirən xoşməram qızı.
Xanımlar xanımı ay anam qızı,
Heydəri böyüdüb Heydər eləyin.

Sözü tara verin, qoy tar oxusun,
Seyid dilə gəlsin, Cabbar oxusun;
Tarın, Azərbaycan, mübarək olsun, -
məni də dillərdə "Şüştər" eləyin.

***2012***

Azərbaycan artıq uzaq kosmosa özünün ilk peykini göndərdi.

Bu, tarixi nailiyyətimizdi.
Bu - Vətən, sənin yeni tərcümeyi-halının başlanğıcıdı...



**Nəriman HƏSƏNZADƏ,**
**Bakı şəhəri, 2013**

**Azad Azərbaycan.- 2023- cü il.- 31 avqust.- S. 5.**